**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2018-ci il üzrə hesabatı**

## Məşğulluq və işsizlik

2018-ci il dekabrın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz artaraq 1553,6 min nəfər olmuş, onlardan 888,1 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 665,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.

Muzdla işləyənlərin 21,5 faizi təhsil, 18,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 13,5 faizi sənaye, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 7,2 faizi tikinti, 7,0 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,6 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,4 faizi peşə, elmi və texniki fəaliyyət, 3,2 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi maliyyə və sığorta fəaliyyəti, 11,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olmuşlar.

2019-cu il yanvar ayının 1-i vəziyyətinə məşğulluq xidməti orqanlarında ölkə üzrə qeydiyyatda olan işaxtaranların sayı 196502 nəfər olmuş, onların 32 faizini qadınlar təşkil etmişdir. İşsizlikdən sığorta ödənişinin orta məbləği 326,70 manat olmuşdur.

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bazar iqtisadiyyatının tələblərinə uyğun reallaşdırılan islahatlarla əhalinin sosial rifahının əlaqələndirilməsi konsepsiyası uğurla icra olunur. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (bundan sonra – AR ƏƏSMN) yanında Dövlət Sosial Müdafiə Fondu orqanlarının 2018-ci ildəki fəaliyyəti bilavasitə Azərbaycan vətəndaşına göstərilən xidmətin şəffaflığının təmin edilməsi, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılması, əhalinin, xüsusi ilə də onun aztəminatlı təbəqəsinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı olmuşdur. Bu əsasda AR ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların tətbiqi, əmək pensiyaçılarının və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri 2018-ci ildə də davam etdirilmişdir.

2018-ci ildə Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 2017-ci ilin müvafiq dövrünə nisbətən 279,3 mln. manat və ya 8,3 faiz artaraq 3678,3 mln. manata yüksəlmişdir.




Hesabat dövrü ərzində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,82 faiz və ya 246,49 mln. manat artaraq 2332,15 mln. manat təşkil etmiş, illik proqnoza 102,59 faiz əməl olunmuşdur. Ölkədəki iqtisadi inkişafın əyani təsdiqi kimi qeyri-büdcə sektoru üzrə sosial sığorta daxilolmalarındakı artım tendensiyası cari ildə də davam etmişdir. Qeyri-büdcə sektoru üzrə yığım 1494,58 mln. manatı keçərək ötən illə müqayisədə 152,4 mln. manat (11,4 faiz) çox olmaqla, illik proqnoz 106,1 faiz (86 mln. manat çox) icra edilmişdir.



Hesabat dövründə Fondun xərcləri 3682,4 mln. manat təşkil etmiş və bunun da 3603,7 mln. manatı və yaxud 97,8 faizi əhaliyə verilən ödənişlərə yönəldilmişdir. Əmək pensiyaları ilə bağlı xərclər 3523,23mln. manat, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən müavinətlərin məbləği isə 80,49 mln. manat təşkil etmişdir. Fondun daxilolmalarının artım səviyyəsi hər ay pensiya və müavinətlərin vaxtında maliyyələşdirilməsinə imkan vermişdir.




2018-ci ildə işsizlikdən sığortaya dair sığorta haqları üzrə cəmi mədaxil 72,7 milyon manat təşkil etmişdir. Dövlət Məşğulluq Xidmətinə 72,21 milyon manat köçürülmüşdür. İlin sonuna qalıq 485,1 min manat olmuşdur.

Sosial sığorta sistemində aktiv iştiraka marağın getdikcə artması fərdi uçot sistemində fərdi şəxsi hesabı olanların sayının da çoxalmaqda davam etməsinə səbəb olmuşdur. Belə ki, 2019-ci il 1 yanvar tarixinə Fondun fərdi uçot sistemində qeydiyyata alınan sığortaolunanların sayı ötən ilin müvafiq dövrü (3 566 745 nəfər) ilə müqayisədə 169 806 nəfər və ya 4,8 faiz artaraq 3 736 551 nəfərə çatmışdır.

2018-ci il ərzində respublika əhalisinin 5,1 faizinə və ya 505,9 min nəfərə sosial müavinət təyin olunmuşdur ki, onlardan 415,9 min nəfərinə aylıq və 90 min nəfərinə isə birdəfəlik sosial müavinət verilmişdir. Ölkə üzrə 415884 nəfər və ya 4.2 faiz aylıq, 90056 nəfər və ya 0.9 faiz isə birdəfəlik sosial müavinət alanlardır. Bundan əlavə, 62 min nəfərə Azərbaycan Respublikası Prezidentinin müxtəlif Fərman və Sərəncamlarına əsasən Azərbaycan Respublikası Prezidentinin təqaüdləri təyin olunaraq ödənilmişdir.

II Dünya müharibəsi iştirakçısı olan 541 nəfərin hər birinə 1000 manat və həlak olmuş döyüşçülərin həyat yoldaşı, ailə üzvü və digər yaxın qohumu olan 10430 nəfərin hər birinə 500 manat birdəfəlik ödənişlərin verilməsi təmin edilmişdir. 3 dekabr "Beynəlxalq əlilliyi olan şəxslər günü" ilə əlaqədar sağlamlıq imkanları məhdud olan 7500 uşağa birdəfəlik maddi yardım verilmişdir.

Eyni zamanda 2018-ci ildə sosial müavinət alanların sayı 2017-ci il ilə müqayisədə 23 min nəfər, təqaüd alanların sayı isə 2 min nəfər artmışdır. 2018-ci il ərzində bu məqsədlər üçün 428,8 milyon manat vəsait sərf edilmişdir.

Aztəminatlı ailələrin sosial müdafiəsi məqsədilə ünvanlı dövlət sosial yardımı proqramının icrası davam etdirilərək il ərzində bu məqsədlər üçün 104 mln. manat

vəsait xərclənmışdir. 2018-ci ilin sonuna ünvanlı dövlət sosial yardımı alan ailələrin sayı 42,7 min nəfər olmuşdur ki, bu da müvafiq olaraq ötən illə müqayisədə 36,9 min ailə və ya 46% azdır. 2018-ci ildə yardımın orta aylıq məbləği 161,2 manat təşkil etmişdir. İlin sonuna təyinat alan ailələr üzrə yardımın orta məbləği 189 manata çatmışdır. Bu sahədə mənfi halların qarşısını alınması və ünvanlılığın təmin edilməsi nəticəsində təyinatların sayı 53 % azalaraq büdcə vəsaitlərinə 102 mln. manat və ya 49 % qənaət edilmişdir.

Bundan əlavə 2018-ci il 28 dekabr tarixinə Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2018-ci il tarixli 821 saylı Sərəncamına əsasən ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə 100 (yüz) manat məbləğində birdəfəlik maddi yardım ödənilmişdir ki, cəmi 42895 ailəyə 4,3 milyon manat ödənilmişdir.

Nəzərdə tutulandan 3 dəfə artıq olaraq 2018-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərdən və şəhid ailələrindən 626 nəfəri mənzillə təmin olunmuşdur.

2018-cı ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 avqust 1993-cü il tarixli 433 saylı Qərarı ilə təsdiq edilmiş "Xüsusi nəqliyyat almaq üçün tibbi göstərişləri olan əlillərin avtomobil və motorlu araba ilə təmin edilməsi qaydaları haqqında Təlimat"a əsasən növbədə olan imtiyazlı şəxslərdən 265 nəfəri pulsuz avtomobillə təmin olunmuşdur. 2019-ci il 1 yanvar tarixinə 994 nəfər imtiyazlı şəxs pulsuz avtomobil növbəsindədir.

20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümü ilə əlaqədar olaraq, 115 nəfər 20 Yanvar şəhid ailəsinin və 297 nəfər 20 Yanvar əlilinin hər birinə 60 manat məbləğində birdəfəlik maddi yardımın verilməsi təmin edilmişdir. Çernobıl AES-də baş vermiş qəzanın 32-ci ildönümü ilə əlaqədar həmin qəzanın nəticələrinin aradan qaldırılmasında iştirak edərək əlil olmuş 500 nəfər şəxsin hər birinə 50 manat məbləğində birdəfəlik maddi yardım verilmişdir.

İdman tədbirlərinin keçirilməsi və əlillərin beynəlxalq yarışlarda iştirakına şərait yaradılması məqsədi ilə Paralimpiya və Xüsusi Olimpiya Komitələrinə və BOCCİA Federasiyasına maliyyə vəsaiti ayrılmışdır.

2018-ci il ərzində əlilliyi olan şəxslərə 6148 ədəd sanator-kurort yollayışı və 1409 ədəd istirahət mərkəzlərinə göndəriş verilmişdir ki, ötən illə müqayisədə müvafiq olaraq 261 və 143 ədəd artım olmuşdur.

Nazirliyin "Əlillərin tibbi reabilitasiya və sosial-məişət problemlərinin həllinə köməklik göstərən Komissiyası"nın qərarı əsasında sosial müdafiəyə daha çox ehtiyacı olan 1374 nəfər əlilin sosial-məişət problemlərinin həll edilməsinə və 75 nəfər əlilin respublika daxilində müalicə olunmasına köməklik göstərilməsi məqsədilə birdəfəlik maddi yardımlar ayrılmışdır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Vətəndaşların respublikadan kənar müalicəyə göndərilməsi məsələləri üzrə Komissiyası"nın müvafiq rəyi əsasında 29 nəfər əlilin respublikadan kənarda müalicəyə göndərilməsinə köməklik göstərilməsi barədə qərar qəbul olunmuşdur.

AR ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən əmək qabiliyyətli qohumları və ya qanuni nümayəndələri ilə eyni yaşayış məntəqəsində yaşamayan və sosial xidmətə ehtiyacı olan tənha ahıllara, ahıl ər-arvadlara, əlillər və sağlamlıq imkanları məhdud uşaqlara, xəstəliyin terminal (son) mərhələsində olan şəxslərə evdə (səyyar) sosial xidmət göstərilir. 2019-ci il 1 yanvar tarixinə 1183 nəfər sosial işçi tərəfindən 10420 nəfər şəxsə evdə sosial məişət xidmətinin göstərilməsi davam edir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 30 dekabr tarixli 330 nömrəli qərarı ilə təsdiq edilmiş "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına

verilməsi Qaydası"na əsasən sağlamlıq imkanları məhdud uşaqlara sosial xidmətlərin göstərilməsi üçün Nazirlik tərəfindən prioritet istiqamətlər müəyyən edilmiş və həmin xidmətlərin ixtisaslaşdırılmış QHT-lər tərəfindən icra edilməsi məqsədi ilə sosial sifarişlər elan edilmişdir. 2018-ci ildə 43 QHT ilə 81 layihə üzrə müqavilə bağlanmışdır.

2019-cu il 1 yanvar tarixinə Nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun tabeliyində olan müəssisələrdə ümumilikdə 900 nəfər tam dövlət təminatında olmuşdur.

2019-cu il 1 yanvar tarixə AR ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunları üçün "Məzun evi" Sosial Müəssisəsində yaşayan 243 nəfər bu kateqoriyadan olan şəxsə xidmət göstərilir.

Hazırda 1 saylı Sağlamlıq imkanları məhdud gənclərin peşə-reabilitasiya mərkəzində 78 nəfər kurs keçir.

"Baxımsız, kimsəsiz və sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar üçün Sosial Sığınacaq və Reabilitasiya Müəssisəsi" sosial xidmət müəssisəsində 19, "Yaşayış yeri olmayan 18 yaşdan yuxarı şəxslər üçün sosial sığınacaq" sosial xidmət müəssisəsində 33 nəfərə xidmət göstərilir.

## Əmək münasibətləri və sosial müdafiə

2018-ci ilin yanvar-noyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,9 faiz artaraq 540,1 manat olmuşdur. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı, eləcə də tikinti sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olmuşdur.




"Minimum aylıq əməkhaqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 3545 nömrəli Sərəncamı ilə 1 yanvar 2018-ci il tarixindən minimum aylıq əməkhaqqının məbləği artırılaraq 116 manatdan 130 manata çatdırılmışdır.

Ölkə üzrə aparılan uğurlu siyasətin nəticəsi olaraq AR ƏƏSMN yanında Dövlət Məşğulluq Xidməti orqanları tərəfindən 2018-ci il ərzində işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, onların məşğulluğunun təmin edilməsi istiqamətində bir sıra məşğulluq tədbirləri həyata keçirilmişdir.

Məşğulluq xidməti orqanlarına hesabat dövründə cəmi 119230 nəfər müraciət etmişdir ki, onlardan 51774 nəfəri münasib işlə təmin edilmiş, 1022 nəfəri haqqı ödənilən ictimai işlərə, 2559 nəfəri peşə hazırlığı kurslarına cəlb olunmuş, 6331 nəfərə əvvəlki təyinatla bağlı işsizlik müavinəti, 2449 nəfərə isə "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanunu qüvvəyə minməsi ilə əlaqədar işsizlikdən sığorta ödənişi verilmişdir. 2017-ci illə müqayisədə Məşğulluq xidməti orqanlarına müraciət edənlərin və işlə təmin olunanların sayında artım müşahidə edilir.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin işəgötürənlərə sosial məsuliyyətin bölüşdürülməsi ilə bağlı çağırışı ölkədə sosial məsuliyyət prinsipinin geniş vüsət almasına, məşğulluq sahəsində mövcud olan sosial tərəfdaşlıq müstəvisində dövlət-işəgötürən münasibətlərinin keyfiyyətcə yeni və işgüzar bir mərhələyə çıxmasına zəmin yaratmışdır. 2018-ci ildə 15 dövlət və özəl şirkətlər, eləcə də yerli icra hakimiyyətləri orqanları tərəfindən abadlıq işlərinin həyata keçirilməsi üçün Dövlət Məşğulluq Xidmətinə 30000 vakant iş yerləri təqdim olunmuşdur. Həmin vakant iş yerləri hesabına 21759 nəfər işçi ilə əmək müqaviləsinin müddəti uzadılmış, regionlarda 21254 nəfər yerli icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilən abadlıq və təmir-tikinti işlərinə cəlb edilmiş, əlavə olaraq 16285 nəfər işaxtaran vətəndaşla əmək müqaviləsi bağlanılmışdır.

Hesabat dövrü ərzində Bakı, Naxçıvan şəhərləri və Göyçay rayon Regional Peşə Tədris Mərkəzlərində əmək bazarının tələblərinə uyğun olaraq peşə hazırlığı kursları təşkil edilmiş, 2559 nəfər işaxtaran vətəndaş qeyd olunan tədris mərkəzlərində peşə hazırlığı kurslarına cəlb olunmuşdur.

Peşə hazırlığı kurslarının təşkilində 87 ənənəvi peşə proqramları ilə yanaşı müasir tədris modul proqramları da tətbiq edilmişdir. Azərbaycan Hökuməti və Dünya Bankının birgə həyata keçirdiyi "Sosial Müdafiənin İnkişafı" Layihəsi çərçivəsində 43 peşə üzrə modul proqramları hazırlanaraq Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur ki, ümumilikdə 58 peşə üzrə modul proqramları tətbiq olunur.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə birgə hazırlanaraq təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq cəzaçəkmə müəssisələrindən azad ediləcək şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi məqsədi ilə əmək bazarında rəqabətə davamlı peşə və ixtisaslar üzrə peşə hazırlığı kurslarına 239 nəfər məhkum şəxs cəlb olunmuşdur.

2018-cı il ərzində 48 nəfər gözdən əlil Brayl sistemi üzrə "Kompüter istifadəçisi" və "İngilis dili" peşələri üzrə hazırlıq kurslarına cəlb olunmuşdur. Ümumiyyətlə hesabat dövrü ərzində 96 nəfər əlil peşə hazırlığı kurslarına cəlb edilmişdir..

Peşəyönümü işinin gənc nəslin gələcək taleyində, onların məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq şəhər və rayonların ərazisində fəaliyyət göstərən orta ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdləri, eləcə də Məşğulluq Mərkəzlərinə müraciət edən işaxtaran gənclərə düzgün peşə seçimi istiqamətində peşəyönümü məsləhətləri verilmişdir. Bu tədbirlər nəticəsində 2018-ci il ərzində 118138 nəfər peşəyönümü məsləhətlərinə cəlb olunmuşdur.

27 fevral-2 mart və 2-6 aprel tarixlərində Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) icra etdiyi "Cənubi Qafqazda Özəl Sektorun İnkişafı və Peşə Təhsili və Təlimi Proqramı" çərçivəsində əmək bazarının tələblərinə cavab verə biləcək bacarıqların yaradılması mövzusunda təlimçilər üçün təlimlər təşkil olunmuşdur.

Gənclərin peşə seçiminə köməklik göstərilməsi, peşəyönümü xidmətinin təkmilləşdirilməsi məqsədi ilə Dövlət Məşğulluq Xidmətinin rayon (şəhər) Məşğulluq Mərkəzlərinin peşəyönümü mütəxəssislərinin potensialının gücləndirilməsi məqsədi ilə Göyçay Regional Peşə Tədris Mərkəzində ekspertlərin iştirakı ilə təlimlər təşkil olunmuşdur. Təlim zamanı peşəyönümü mütəxəssislərinə orta ümumtəhsil məktəblərinin şagirdləri və onların valideynləri üçün peşəyönümü işinin aparılması üsulları, peşəyönümü işində müəllimlərin fəaliyyəti, psixoloqun peşəyönümü işində

vəzifələri və funksiyaları, işaxtaran və işsiz şəxslərə peşəyönümü işinin təşkili metodikası, əmək bazarının vəziyyəti, sosial müdafiəyə xüsusi ehtiyacı olan vətəndaşlarla peşəyönümü işinin təşkili formaları və üsulları haqqında ətraflı məlumat verilmişdir. 6 təlim günlərindən ibarət olan təlimlər 6 qrupda keçirilmiş və ümumiyyətlə bu təlimlərə 85 nəfər cəlb olunmuşdur.

2018-ci ilin aprel, eləcə də noyabr-dekabr aylarında "Peşə seçimində valideynlərin rolu", "Düzgün peşə seçimi gələcək uğurunuzun zəminidir" mövzusunda Respublikanın 263 orta ümumtəhsil məktəblərində peşəkar təlimçilər, psixoloqlar və peşəyönümü mütəxəssislərin iştirakı ilə tədbirlər keçirilmişdir. Keçirilən bu tədbirlərin məqsədi yeniyetmələrə gələcək peşə və ixtisas seçimində, onların əmək bazarında ən çox tələb olunan müasir peşə və ixtisaslar, eləcə də peşə, məşğulluq forması, özünüifadə yollarını sərbəst seçmələrinə köməklik göstərilməsindən ibarətdir. Tədbirlərdə iştirak etmiş valideynlərə övladlarının peşə seçimi ilə bağlı zəruri tövsiyələr və məsləhətlər verilmişdir.

2018-ci ilin fevral ayında "BP" şirkəti və onun tərəfdaşları tərəfindən məşğulluq xidməti orqanlarında qeydiyyatda olan işaxtaran və işsiz şəxslər üçün Əlilliyi olan Şəxslərin Məşğulluq Qabiliyyətlərinin Artırılması layihəsinin icrasına başlanılmışdır. Layihənin əsas məqsədi əlilliyi olan şəxslərin bacarıqlarını artıraraq onların məşğulluq imkanlarını genişləndirməkdir. Bu məqsədə nail olmaq üçün layihə çərçivəsində sosial bacarıqlar, kompüter istifadəçisi və ingilis dili üzrə təlimlər həyata keçirilir. Layihədə hazırda 86 nəfər iştirak edir.

İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi tərəfindən Dövlət Məşğulluq Xidmətinə məşğulluğunun təmin olunmasına köməklik göstərilməsi ilə əlaqədar daxil olmuş 22 nəfərin müraciətinə əsasən 3 nəfər işlə təmin olunmuş, 5 nəfər peşə hazırlığı kurslarına cəlb edilmişlər. Digər vətəndaşlara isə peşəyönümü məsləhətləri verilmişdir.

Müxtəlif mövzular üzrə işəgötürənlərin məlumatlandırılması məqsədilə respublikanın 65 rayon və şəhərində dəyirmi masalar keçirilmişdir. Keçirilən tədbirlərdə şəhər, rayon icra hakimiyyətlərinin, məşğulluğa kömək göstərən yerli əlaqələndirmə komitələrinin, həmkarlar ittifaqlarının, gənclər və idman idarələrinin nümayəndələri, eləcə də rayon ərazisində fəaliyyət göstərən 2000-ə yaxın müəssisə, idarə, təşkilat və şirkət nümayəndələri iştirak etmişlər.

2018-ci il ərzində respublikanın 58 şəhər və rayonunda əmək yarmarkaları təşkil olunmuş ki, bu yarmarkalarda 2132 müəssisə tərəfindən boş iş yerləri təqdim olunmuşdur. Respublikanın müxtəlif regionlarında keçirilmiş yarmarkalarda 845-i özəl müəssisələr olmaqla 21008 boş (vakant) iş yerlərinin hesabına 4256 nəfər işsiz vətəndaşla bağlı münasib işlərə göndəriş verilmiş, onlardan 3548 nəfəri (83,4 %-i münasib işlərlə təmin edilmiş, 221 nəfər peşə hazırlığı kurslarına, 141 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuşdur.

2018-ci ilin dekabr ayında yeni məşğulluq informasiya altsistemi istifadəyə verilmiş, bununla bağlı qeydiyyatda olan işaxtaran və işsizlərin inventarizasiyası aparılmış, 114434 nəfər işaxtaran və işsiz vətəndaş qeydiyyatdan çıxarılmış, 149524 işsiz və işaxtaran vətəndaşlar haqqında məlumat sistemdə saxlanılmışdır.

2018-ci il ərzində Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində və Lənkəran rayonunda məzun və tələbələrin işlə təmin olunmasına köməklik göstərilməsi, eləcə də məzunların və tələbələrin əmək bazarına inteqrasiyası məqsədi ilə "Karyerada ilk addım" devizi altında respublikamızın 8 ali təhsil ocağında tədbirlər keçirilmişdir ki, bu tədbirlərə 457 müəssisə tərəfindən 2351 boş (vakant) iş yerləri təqdim edilmişdir. Tədbirlər nəticəsində 179 nəfərə münasib iş göndərişi verilmiş ki, onlardan 31 nəfəri işlə təmin edilmişdir. 2189 məzun və tələbənin şəxsi məlumatları müəssisələr tərəfindən qəbul edilmiş, 20 nəfər isə peşə hazırlığı və əlavə təhsil kurslarına cəlb edilmişdir.

BMT İnkişaf Proqramı ilə nazirlik arasında son illərdə icra olunan "Azərbaycanda innovasiyanın və məşğulluğun İnkişafı" layihəsi gənclərin əmək bazarına

inteqrasiyasında SYSLAB (Yenilik və Məşğulluq üzrə Sistem Laboratoriyası) metodologiyasının tətbiqi davam etdirilmişdir. Bu layihə üzrə Bakı, Sumqayıt, Gəncə və Masallıda 800-dək gənc həmin mərkəzlərdə təlim kurslarına cəlb edilmişdir. Onlar bu təlimlər zamanı müasir üsullar, innovativ metodlar əsasında iş axtarışı bacarıqlarına yiyələnmişlər. Həmin gənclərdən 75% faizə yaxını bu bacarıqlardan faydalanaraq, ayrı-ayrı müəssisələrdə münasib işlərlə təmin olunmuşlar. Zaqatalada yeni Syslab Mərkəzinin yaradılması üçün təşkilati-hazırlıq işlərinə başlanılmışdır.

Pərakəndə işçi qüvvəsinin daha səmərəli və etibarlı fəaliyyətini təmin etmək məqsədilə hesabat dövründə Dövlət Məşğulluq Xidmətinin struktur bölməsinə daxil olan "Əmək Birjaları" tərəfindən 2905 nəfər işsiz vətəndaş, o cümlədən 1591 nəfər qadın, 1255 nəfər gənc, 134 nəfər qaçqın və məcburi köçkün, 14 nəfər əlil müvəqqəti xarakterli işlərlə təmin olunmuşdur.

Azərbaycan Respublikasında Sosial və İqtisadi Məsələlər üzrə Üçtərəfli Komissiya fəaliyyətini davam etdirmiş, bir sıra sosial xarakterli qanun və qərar layihələri sosial tərəfdaşların nümayəndələrinin iştirakı ilə müzakirə edilərək təkmilləşdirilmişdir. Ölkəmizdə aparılan sosial-iqtisadi islahatlara beynəlxalq səviyyədə verilən yüksək qiymətin növbəti göstəricisi olaraq Beynəlxalq Əmək Təşkilatı (BƏT) tərəfindən "BMT-nin 2030 Gündəliyi"nin və 8-ci (Layiqli əmək və iqtisadi inkişaf) Dayanıqlı İnkişaf Məqsədinin icrası ilə bağlı region üzrə Azərbaycan Respublikası fokus ölkə olaraq müəyyən edilmiş və bununla bağlı 21 may 2018-ci il tarixində Bakı şəhərində "Dayanıqlı İnkişaf Məqsədlərinə doğru, davamlı inkişafın və layiqli əməyin təbliği" mövzusunda beynəlxalq konfrans təşkil olunmuşdur. Konfransın işində BƏT-in Baş direktoru Qay Rayder, BƏT-in digər yüksək vəzifəli rəsmiləri, həmçinin xarici ölkələrin aidiyyəti qurumlarının yüksək səviyyəli nümayəndə heyətləri iştirak etmişlər. Bu konfransın ölkəmizdə keçirilməsi Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində əldə etdiyi uğurları beynəlxalq ictimaiyyətə çatdırmaq və bu sahədə tərəfdaş ölkələrlə fikir mübadiləsi aparmaq baxımından faydalı olmuşdur.

Həmçinin ƏƏSMN, BƏT və sosial tərəfdaşların birgə təşkilatçılığı ilə əmək, məşğulluq və sosial müdafiə sahələri üzrə beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi edilməsi məqsədilə Bakı şəhərində müxtəlif mövzularda seminar və konfranslar keçirilmişdir.

Nazirliyin fəaliyyətinin prioritetləri üzrə beynəlxalq tərəfdaşlarla gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi məqsədilə 03 may 2018-ci il tarixində ƏƏSMN və BMT-nin İnkişaf Proqramının (BMTİP) birgə təşkilatçılığı və beynəlxalq təşkilatların nümayəndələrinin iştirakı ilə əlaqələndirmə iclası keçirilmişdir.

Əhalinin həssas qruplarına dəstək göstərmək, özünüməşğulluq proqramına əlilliyi olan şəxslərin daha çox cəlb olunmasını təmin etmək məqsədilə AR ƏƏSMN və BMTİP tərəfindən birgə icrası nəzərdə tutulan "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" adlı texniki yardım layihəsi 19 dekabr 2018-ci il tarixdə imzalanmışdır. ƏƏSMN, BMTİP və BMT-nin Əhali Fondunun "Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin olunması" birgə proqram sənədi və BMT-nin Əhali Fondu ilə birgə icra olunacaq "Bütün yaşlar üçün cəmiyyətin qurulması: fəal yaşlanma yolu ilə Azərbaycanda yaşlıların rifahının təşviq edilməsi" layihə sənədi imzalanma üçün hazırlanmışdır.

BMT-nin Əhali Fondu ilə əməkdaşlıq çərçivəsində "Azərbaycanda gender əsaslı cinsi seçimin qarşısının alınması və aradan qaldırılması üzrə Milli Fəaliyyət Planı"nın layihəsi hazırlanmış və 19 oktyabr 2018-ci il tarixində layihənin rəsmi təqdimatı keçirilmişdir.

"BMT-nin Uşaq Fondunun Azərbaycana dair 2016 – 2020-ci illər üçün Ölkə Proqramı üzrə Fəaliyyət Planı" çərçivəsində UNİCEF, AR ƏƏSMN və Azərbaycan Respublikasının Təhsil Nazirliyi arasında 2018-2019-cu illər üzrə Əməkdaşlıq Proqramı imzalanmışdır.

Asiya İnkişaf Bankı tərəfindən "Dayanıqlı İnkişaf Məqsədlərinə nail olmaq üçün sosial müdafiə sahəsində Asiya İnkişaf Bankının dəstəyinin gücləndirilməsi" layihəsi çərçivəsində “Əmək pensiyalarının yığım hissəsi haqqında” və “Qeyri-dövlət pensiya fondları haqqında” qanun layihələrinin beynəlxalq ekspertizadan keçirilməsi və “Beynəlxalq təcrübəyə əsaslanaraq ünvanlı dövlət sosial yardım və sosial müavinətlər proqramlarının birləşdirilməsi” layihələri üzrə AR ƏƏSMN benefisiar qurum kimi müəyyən edilmiş və sözügedən layihələrin icrasına başlanılmışdır.

Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti çərçivəsində benefisiarı AR ƏƏSMN olan “Azərbaycan Respublikasında pensiya sisteminin islahatının həyata keçirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək” və “Dövlət Məşğulluq Xidmətinin modernləşdirilməsində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək” adlı tvinninq layihələrinin icrası davam etdirilmişdir.

Cari ilin 21-22 fevral tarixlərində Səudiyyə Ərəbistanı Krallığının Ciddə şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatının (İƏT) əmək nazirlərinin dördüncü konfransında iştirak etmək üçün Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkəyə səfər etmişdir. Tədbirdə Azərbaycan Respublikası növbəti 2 il (2018-2020) üçün İƏT-in Əmək məsələləri üzrə Rəhbər Komitəsinin üzvü seçilmişdir. Mənzil-qərargahı Bakı şəhərində olacaq İƏT Əmək Mərkəzinin təsis olunması, onun Nizamnaməsinin imzalanması prosesinin sürətləndirilməsi ilə bağlı tədbirlər davam etdirilmişdir. 01 oktyabr 2018-ci il tarixində İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzinin Nizamnaməsi Azərbaycan Respublikasının Qanunu ilə təsdiq olunmuşdur.

Azərbaycanda sosial təminat sahəsində həyata keçirilən islahatlar, ölkəmizlə Beynəlxalq Sosial Təminat Assosiasiyası (BSTA) arasında əməkdaşlığın genişləndirilməsi istiqamətləri, həmçinin iş yerində bədbəxt hadisələrin qarşısının alınması məsələləri barədə müzakirələrin aparılması məqsədilə 10-12 iyul 2018-ci il tarixlərində BSTA-nın Prezidenti, Almaniyanın Bədbəxt Hadisələrdən Sosial Sığorta Təşkilatının baş direktoru Yoakim Bröyerin rəhbərlik etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına səfər etmişdir.

“Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş”ə uyğun olaraq cari ilin 1 fevral tarixində Bakı şəhərində keçirilmiş əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın 9-cu iclasında iştirak etmək üçün Türkiyə Respublikasının əmək və sosial müdafiə naziri xanım Jülide Sarıeroğlunun rəhbərlik etdiyi nümayəndə heyətinin cari ilin 31 yanvar-2 fevral tarixlərində ölkəmizə səfəri baş tutmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Belarus Respublikasına rəsmi səfəri çərçivəsində 19 noyabr 2018-ci il tarixində “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidentinin 06 oktyabr 2018-ci il tarixli 525 nömrəli sərəncamının icrası ilə bağlı 22-23 noyabr 2018-ci tarixlərində Buxarest şəhərində Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında ticarət-iqtisadi əlaqələr və elmi-texniki əməkdaşlıq üzrə Müştərək Komissiyanın 5-ci iclası keçirilmişdir.

Nazirliyin fəaliyyət istiqamətləri üzrə ikitərəfli münasibətlərin inkişaf etdirilməsi Azərbaycanla İran, Rusiya, Mərakeş Krallığı, Bolqarıstan, Qazaxıstan arasında hökumətlərarası komissiyalar xətti ilə davam etdirilmişdir.

Ölkədə işsizlikdən sığorta sisteminin tətbiqi məqsədilə “İşsizlikdən sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu 30 iyun 2017-ci il tarixdə qəbul olunmuş və 2018-ci il yanvar ayının 1-dən qüvvəyə minmişdir. Qanunun tətbiqi ilə bağlı

AR ƏƏSMN tərəfindən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 qərar layihəsi hazırlanmışdır.

Səmərəli məşğulluğun təmin edilməsinə yönəldilmiş institusional islahatlar müəyyən edilməklə uzunmüddətli dövlət məşğulluq siyasətinin formalaşdırılması məqsədilə Azərbaycanda məşğulluq siyasətinin əsaslarını müəyyən edən "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2019-2030-cu illər)" 2018-ci il 30 oktyabr tarixdə təsdiq edilmişdir ki, hazırda Tədbirlər Planı hazırlanaraq Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə işlər aparılır.

Özünüməşğulluq proqramı 2018-ci ildə 6,5 dəfə genişləndirilərək 7896 nəfər özünüməşğulluq təlimlərinə cəlb olunmuş, onlardan 7267 nəfəri biznes planlarını uğurla müdafiə etmişdir ki, nəticədə 5000–dən çox ailə aktivlərlə təmin olunaraq kiçik ailə təsərrüfatını yaratmışdır.

AR ƏƏSMN və Heydər Əliyev Fondunun "Regional İnkişaf" İB arasında özünüməşğulluq proqramının icrası sahəsində əməkdaşlığa dair Memorandum imzalanmışdır. Memorandum çərçivəsində regionlarda 125 ailə üçün intensiv meyvə bağlarının, tərəvəz və bostançılıq təsərrüfatlarının yaradılması nəzərdə tutulmuş və AR ƏƏSMN işsizlikdən sığorta fondunun vəsaiti hesabına layihənin maliyyələşdirilməsi həyata keçirmişdir.

Həssas qruplardan olan işsiz şəxslərin potensialını artırmaq və onların formal əmək bazarında səmərəli məşğulluğu üçün imkanlar yaratmaq məqsədilə 19 dekabr 2018-ci il tarixdə Azərbaycan Hökuməti ilə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı arasında "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" texniki yardım layihəsi imzalanmışdır. .

Azərbaycan Respublikasında Prezidentinin 2017-ci il 09 oktyabr tarixli 3287 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı"nda əks olunmuş tapşırıqların icrasını təmin etmək məqsədilə Komissiyanın AR ƏƏSMN-də yaradılmış Katibliyinin təşkilatçılığı ilə işçi qrupun iclasları keçirilmiş, nəzərdə tutulmuş işlər müzakirə edilmiş, görülən işlər barədə Komissiya üzvləri məlumatlandırılmış və əlaqədar qurumlara müvafiq tapşırıqlar verilmişdir. Katiblik həyata keçirilən tədbirlərin səmərəliliyini artırmaq məqsədilə respublikada fəaliyyət göstərən rayon (şəhər) icra hakimiyyətləri yanında məşğulluğa kömək göstərən əlaqələndirmə komitələri ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərmişdir.

Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən rəy verilməsi üçün AR ƏƏSMN-ə 6491 müraciət daxil olmuşdur ki, onlardan 3217 yeni, 3274-i isə ötən illər ərzində verilmiş iş icazələrin müddətlərinin uzadılması ilə bağlı olmuşdur. Daxil olmuş müraciətlərə baxılmış və ümumilikdə 3991 nəfər olmaqla 1886 nəfərə iş icazəsi verilməsi, 2105 nəfərin isə iş icazələrinin müddətlərinin uzadılması məqsədəuyğun hesab edilmişdir. 2500 əcnəbiyə iş icazəsinin verilməsi məqsədəuyğun hesab edilməmişdir. İş icazəsinə rəy verilməsi üçün daxil olmuş müraciətlərdən Türkiyə Respublikası (2015), Böyük Britaniya (1070) və Hindistan (539) vətəndaşları üstünlük təşkil etmişdir.

Peşə standartlarının normativ hüquqi bazasının yaradılması və əhatə dairəsinin genişləndirilməsi məqsədilə Avropa Təlim Fondu və Avropa İttifaqının ekspertləri cəlb edilməklə peşə standartları sahəsində qabaqcıl ölkələrin təcrübəsi öyrənilmiş və aidiyyəti qurumların rəy və təklifləri nəzərə alınmaqla "Peşə standartlarının hazırlanması, yenidən hazırlanması, təsdiq edilməsi, qeydiyyatının aparılması Qaydaları" və "Bacarıqların inkişaf etdirilməsi üzrə sahə komissiyalarının yaradılması və əsasnaməsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasi Nazirlər Kabinetinin Qərar layihələri hazırlanmış və hökumətə təqdim edilmişdir.

Əmək bazarında strateji məşğulluq sahələrinin müəyyən olunması, iqtisadiyyatın prioritetləri nəzərə alınaraq işçi qüvvəsinə olan tələbatın həm kəmiyyət, həm də

keyfiyyət parametrləri əsasında proqnozlaşdırılması və mükəmməl əmək bazarının monitorinq sisteminin institusional strukturunun yaradılması məqsədilə bütün ölkə iqtisadiyyatı üçün əhəmiyyətli olacaq Azərbaycan Respublikasında Əmək Bazarı üzrə Milli Observatoriyanın yaradılması ilə bağlı layihə sənədləri hökumətə təqdim edilmişdir. Hazırda Milli Observatoriyanın yaradılması istiqamətində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası ilə birgə müvafiq işlər aparılır.

Əmək qanunvericiliyin tələblərinin pozulmasına dair vətəndaşlardan daxil olmuş 6617 şikayət məzmunlu ərizə, eləcə də müxtəlif müəssisə, idarə və təşkilatlar tərəfindən göndərilmiş 1937 məktub AR ƏƏSMN yanında Dövlət Əmək Müfəttişliyi Xidməti tərəfindən araşdırılaraq cavablandırılmışdır.

Əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminin fəaliyyəti ilə bağlı dövlət orqanları, işəgötürənlər və vətəndaşlardan daxil olan 2167 sorğu qanunvericiliyin tələblərinə uyğun olaraq cavablandırılmış və onlara texniki yardımın göstərilməsi təmin olunmuşdur.

Müxtəlif orqanlardan daxil olmuş materialların və vətəndaş müraciətlərinin araşdırılması zamanı 336 halda işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin tələblərinin pozulduğu aşkar edilmişdir. Törədilmiş inzibati xətaya görə ötən illə müqayisədə 3 dəfə çox vəzifəli və hüquqi şəxs barəsində inzibati qərarlar qəbul edilərək 1302450 manat məbləğində inzibati qaydada cərimə tətbiq olunmuşdur. Tətbiq edilən cərimələrdən daxilolmalar 278,2 min manat təşkil etmişdir ki, bu da ötən illə müqayisədə 83858 manat və ya 94,7 % yüksək olmuşdur.

Görülmüş tədbirlərin nəticəsi olaraq vətəndaşlara gecikdirilmiş və ödənilməli olan 149667 (yüz qırx doqquz min altı yüz altmış yeddi) manat məbləğində vəsaitin ödənilməsi təmin edilmişdir.

Əmək müqavilələrinə qanunvericiliyin tələbləri pozulmaqla xitam verilmiş 13 nəfər öz əvvəlki işlərinə bərpa edilmiş, bu işçilər barəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin edilmişdir.

İstehsalatla əlaqəli sayılmış 186 bədbəxt hadisənin təhqiqatı aparılmışdır. 12-si qrup halında olan bu hadisələr nəticəsində 53 nəfər ölmüş, 146 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır. İstehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqatı nəticəsində 199 nəfər zərərçəkmiş şəxsə “İZ” (istehsalat zədəsi) formalı aktın verilməsi təmin olunmuşdur.

İqtisadi fəaliyyət sahələri üzrə istehsalatla bağlı bədbəxt hadisələrin daha çox tikinti sahəsi (23%), mədənçıxarma sənayesi sahəsi (18%), emal sənayesi sahəsi (16,6%), nəqliyyat və anbar təsərrüfatı sahəsində (7,5%), energetika sahəsində (5,4%) və digər sahələrdə (29,5%) baş verməsi müəyyən edilmişdir.

Tikinti sektorunda 43 bədbəxt hadisə baş vermiş (onlardan, qrup halında 1) hadisə) və bu hadisələr zamanı 15 nəfər ölmüş, 29 nəfər müxtəlif dərəcəli xəsarət almışdır.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin təsdiq edilmiş iş planına uyğun olaraq 60 sayda maarifləndirmə tədbiri keçirilmişdir. Tədbirlər 17 şəhər və 67 rayonu əhatə etmişdir. Bu tədbirlər aidiyyəti dövlət orqanlarının, sosial partnyorların və subyektlərin iştirakı ilə keçirilmiş və uşaq əməyinin istismarının qarşısının alınması, əməyin mühafizəsi normalarına əməl olunması, əmək müqaviləsinin bağlanması, müqavilələrin şərtlərinin dəyişdirilməsi və xitam verilməsinin əsasları, əmək qanunvericiliyinin tətbiq olunması mövzularına həsr olunmuşdur.“Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nın müvafiq bəndlərində nəzərdə tutulmuş tədbirlərin icrası məqsədi ilə Dövlət Əmək Müfəttişliyi Xidmətinin yerli bölmələrində yaradılmış hüquqi yardım mərkəzləri tərəfindən işəgötürənlərin iştirakı ilə 96 tədbir keçirilmişdir.

Dövlət Əmək Müfəttişliyi Xidmətinin Mərkəzi Laboratoriyası və Gəncə Regional Laboratoriyası tərəfindən 23 müəssisədə əmək şəraitinin ekspertizası keçirilmiş,

müəssisələrdə iş yerlərinin attestasiyası aparılarkən zərərli və təhlükəli istehsalat amillərinin göstəriciləri instrumental tədqiq edilərək işəgötürənlərə müvafiq rəy və protokollar təqdim edilmişdir.

16 aprel 2018-ci tarixində Beynəlxalq Miqrasiya Təşkilatı tərəfindən "Azərbaycanda insan alverinə qarşı mübarizədə milli potensialların artırılması" layihəsi çərçivəsində AR ƏƏSMN-in 20 nəfər əmək müfəttişi üçün insan alverinə qarşı mübarizəyə dair seminar keçirilmişdir.

Son dövrdə Respublikada əmək qanunvericiliyinin beynəlxalq əmək norma və standartlarına uyğun olaraq təkmilləşdirilməsi, əhalinin əmək haqqı gəlirlərinin artırılması, dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin, həmçinin dövlət qulluqçularının (dövlət qulluğunun xüsusi növü də daxil olmaqla) əmək haqlarının artırılması istiqamətində mühüm işlər görülmüşdür.

"Azərbaycan Respublikasında 2018-ci il üçün yaşayış minimumu haqqında" 2017-ci il 1 dekabr tarixli 906-VQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə əhalinin əsas sosial-demoqrafik qrupları üzrə 2018-ci ilin 1 yanvar tarixindən yaşayış minimumunun məbləği artırılaraq ölkə üzrə 173 manat, əmək qabiliyyətli əhali üçün 183 manat, pensiyaçılar üçün 144 manat, uşaqlar üçün 154 manat məbləğində müəyyən edilmişdir. 2019-cu ilin 1 yanvar tarixindən 2019-cu il üçün yaşayış minimumu ölkə üzrə 180 manat, əmək qabiliyyətli əhali üçün 191 manat, pensiyaçılar üçün 149 manat, uşaqlar üçün 160 manat məbləğində müəyyən edilmişdir.




"Azərbaycan Respublikasında 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 907-VQ nömrəli qanunu ilə 2018-ci il üçün ehtiyac meyarının həddi 130 manat məbləğində müəyyən edilmişdir. 1 yanvar 2019-cu il tarixdən ehtiyac meyarının həddi 143 manat müəyyən edilmişdir.

2018-ci ilin 1 mart tarixindən dövlət büdcəsindən maliyyələşdirilən bütün sahələrdə çalışan işçilərin (o cümlədən, dövlət qulluqçularının (xüsusi növü də daxil olmaqla) tarif (vəzifə) maaşları orta hesabla 10 artırılmışdır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihələri hazırlanaraq qəbul edilmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il üçün İş Planına uyğun olaraq cari ilin 31 avqust tarixində əhalinin real gəlirlərinin artırılması, əməyin ödənilməsi sistemlərinin təkmilləşdirilməsi ilə bağlı məsələlər müzakirə edilmiş və respublikada əməyin ödənişi və dayanıqlı sosial ödənişlər sisteminin formalaşdırılması məqsədilə Nazirlər Kabinetinin 4 dekabr 2018-ci il tarixli 810s nömrəli sərəncamı ilə aidiyyəti qurumların səlahiyyətli nümayəndələrindən ibarət işçi qrup yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya”nın icrası üzrə Fəaliyyət Planında nəzərdə tutulan dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsindən asılı olaraq, pilləli şəkildə dövlət məvacibinin artırılması sisteminin qurulması üçün “Dövlət qulluqçularının əməyinin ödənilməsi sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsi hazırlanaraq baxılmaq üçün aidiyyəti dövlət orqanlarına təqdim edilmişdir.

“Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı”nda nəzərdə tutulmuş “Vergi və məcburi dövlət sosial sığorta haqqının ödənişlərindən yayınma məqsədilə əmək münasibətləri prosesində mülki-hüquqi münasibətlər formasından sui-istifadə hallarının qarşısının alınmasını təmin etmək üçün Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Vergi Məcəlləsində, Mülki Məcəlləsində və digər normativ hüquqi aktlarda dəyişikliklər barədə layihələrin hazırlanması” tədbirinin yerinə yetirilməsi məqsədilə “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında”, “Sosial sığorta haqqında” Azərbaycan Respublikası Qanununa dəyişiklik edilməsi haqqında” və digər qanun layihələri hazırlanaraq razılaşdırılmaq üçün aidiyyəti dövlət orqanlarına təqdim edilmişdir.

Ölkə iqtisadiyyatı inkişaf etdikcə əmək qanunvericiliyinin, eləcə də əməyin ödənilməsi sistemlərinin Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq müqavilələrdən irəli gələn norma və qaydalara, bazar iqtisadiyyatının prinsiplərinə uyğunlaşdırılması və təkmilləşdirilməsi zərurəti yaranır. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Əmək Məcəlləsinin, eləcə də ondan irəli gələn normativ hüquqi aktların təkmilləşdirilməsi üzrə işlər aparılır. Bu məqsədlə “Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsi hazırlanmış, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmuşdur. Layihənin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir.

“Dövlət Əməyin Mühafizəsi Fondunun yaradılması haqqında” Azərbaycan Respublikasının Nazirlər Kabinetinin qərarı layihəsi hazırlanmış və razılaşdırılmaq üçün Azərbaycan Respublikasının Nazirlər Kabinetinə, Azərbaycan Respublikasının Ədliyyə və Maliyyə Nazirliklərinə təqdim edilmişdir. Layihənin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir.

AR ƏƏSMN-in fəaliyyət istiqamətlərinə uyğun olaraq qəbul edilmiş Azərbaycan Respublikası qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının icrasını təmin etmək məqsədilə AR ƏƏSMN tərəfindən müvafiq normativ hüquqi aktların layihələri hazırlanaraq aidiyyəti üzrə təqdim edilmiş, mərkəzi icra hakimiyyəti orqanının səlahiyyətləri çərçivəsində qəbul edilən aidiyyəti normativ hüquqi aktlar isə AR ƏƏSMN tərəfindən hazırlanaraq təsdiq edilmiş və Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.

Respublikada iş vaxtı rejiminə riayət edilməsi məqsədilə “2019-cu il üzrə iş vaxtının norması” və “2019-cu ilin istehsalat təqvimi” AR ƏƏSMN-in 2018-ci il 25 dekabr tarixli 12 nömrəli Kollegiya qərarı ilə təsdiq edilərək işəgötürənlərin istifadəsi üçün sosial.gov.az saytında yerləşdirilmişdir.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2018-ci ilin 19, 20, 22 və 23 fevral tarixlərində imzalanmış müvafiq fərman və sərəncamları ilə şəhid ailəsi üçün, müharibə əlillərinə, 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlil olmuş şəxslərə, Azərbaycanın Milli Qəhrəmanı adı verilmiş şəxslərə, 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və

“Leninqradın müdafiəsinə görə” medalı, “Leninqrad mühasirəsində yaşayan” döş nişanı ilə təltif edilmiş şəxslərə (müharibə əlilləri istisna olmaqla), Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri (valideynləri, dul arvadı) üçün, əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar, Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş verdikdə I qrup əlilliyə görə sosial müavinət alanlara, fəxri adlara görə Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinin, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün, “Sosial müavinətlərin məbləğinin artırılması haqqında” 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanı ilə müəyyən edilmiş sosial müavinətlərin, beşdən çox uşağı olan qadınlara, uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinətlərin məbləği 2018-ci ilin 1 mart tarixindən artırılmış və qanunvericiliyin tənzimlənməsi və müvafiq təşkilatı işlər həyata keçirilərək həmin tarixdən onların ödənişi təmin edilmişdir.

Ünvanlı dövlət sosial yardımının alınması üçün müraciət edilməsi, onun təyin olunması, verilməsi və verilməsindən imtina edilməsi sisteminin təkmilləşdirilməsi məqsədilə AR ƏƏSMN-də İşçi qrup yaradılmış və İşçi qrup tərəfindən aparılan təhlillərin nəticəsi olaraq, “Ünvanlı dövlət sosial yardımı haqqında” Azərbaycan Respublikası Qanununa dəyişikliklərin edilməsi yolu ilə sosial cəhətdən həssas ailə üzvləri olan ailələr üçün ünvanlı sosial yardımların əlçatan olması, tərkibində əmək qabiliyyətli, işləməyə hazır üzvləri olan ailələrin dövlətin dəstəyi ilə özünüməşğulluğa cəlb edilməsi, işsiz şəxslərin özünüməşğulluğunun təşkili zamanı ünvanlı dövlət sosial yardımı alan şəxslərə üstünlük verilməsi prinsipi irəli çəkilmiş, ünvanlı dövlət sosial yardımı alan aztəminatlı ailələrin özünüməşğulluğa cəlb edilməsi üçün hüquqi əsas yaradılmışdır.

İşçi qrupun təklifləri əsasında ünvanlı dövlət sosial yardımının avtomatlaşdırılmış qaydada elektron informasiya sistemi vasitəsilə təyin edilməsi zamanı torpaq payından əldə olunan gəlirlərinin nəzərə alınmasında yaranan problemlərin (vətəndaşlara imtinaların) aradan qaldırılması məqsədilə zəruri hesab edilən məlumatların elektron informasiya bazalarına inteqrasiya edilərək alınması işləri aparılır. O cümlədən, kredit məbləğinə görə ünvanlı dövlət sosial yardımı ala bilməyən çətin həyat şəraitində yaşayan ailənin sosial müdafiəsi təmin etmək məqsədilə qanunvericiliyin təkmilləşdirilməsi üzrə layihə hazırlanır.

Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” 2018-ci il 20 aprel tarixli 1 nömrəli Fərmanı ilə 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə həmin Fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsi nəzərdə tutulmuşdur.

Sözügedən Fərmanın 5-ci hissəsinə uyğun olaraq, Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Ədliyyə Nazirliyi və Dövlət Sığorta Kommersiya Şirkəti tərəfindən müvafiq siyahılar AR ƏƏSMN-ə təqdim edilmişdir.

Fərmanın icrasının vaxtında, tam və keyfiyyətlə təmin etmək məqsədi ilə AR ƏƏSMN-də yaradılmış Komissiya təqdim olunmuş siyahıları təhlil etmiş, müxtəlif mənbələrdən alınan məlumatları üzləşdirilmiş və vərəsələrinin birdəfəlik ödəməni almağa hüququ yaranan hərbi qulluqçuların siyahısı hazırlanmışdır. Fərmanın icrası olaraq 11.000 manatlıq birdəfəlik ödənişin qeyd edilən şəxslərə verilməsi üçün elektron

xidmət yaradılmış və 3097 şəhidin 4190 vərəsəsinə məmur teması olmadan 34 milyon manat vəsait ödənilmişdir. Fərmanın icrasını təmin etmək məqsədilə "1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə birdəfəlik ödəmənin verilməsi Qaydaları" (Qaydalar) hazırlanaraq, AR ƏƏSMN-in Kollegiyasının 2018-ci il 14 sentyabr tarixli 6-8 nömrəli qərarı ilə təsdiq edilmiş və 2018-ci ilin 28 sentyabr tarixində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir. Şəffaflığın və operativliyin təmin edilməsi məqsədilə vərəsələrinin birdəfəlik ödəməni almağa hüququ yaranan hərbi qulluqçuların siyahı AR ƏƏSMN-in satında yerləşdirilmiş, elektron informasiya sistemləri vasitəsilə müavinətlər üçün tələb olunan vəsaitin alınması və ödənilməsi üçün tədbirlər həyata keçirilmiş və prosesin elektronlaşdırılması yolu ilə ödənişi həyata keçirəcək orqan və vətəndaş arasında təmas minimal səviyyəyə endirilmişdir.

Əhalinin sosial xidmətlərlə təmin edilməsi sahəsində milli qanunvericilikdən və Azərbaycan Respublikasının qoşulduğu beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin icrasının təmin edilməsi, sosial xidmətin daim yenilənən müasir tələblərə uyğunlaşdırılması və qabaqcıl beynəlxalq təcrübədən istifadə etməklə uzunmüddətli dövr üçün əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasının təmin edilməsi məqsədilə "2019-2025-ci illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya"nın layihəsi hazırlanmışdır.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə "Yaşayış sahəsinə ehtiyacı olan şəxs qismində uçota alınmış əlilliyi olan şəxs vəfat etdiyi halda həmin uçotun onun ailə üzvləri üçün saxlanılması Qaydası"nın layihəsi hazırlanmış və münasibət bildirilməsi üçün aidiyyəti dövlət orqanlarına göndərilmişdir.

"Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisəsinin Nümunəvi Nizamnaməsi" və "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin layihələri hazırlanmış, rəy və təkliflər nəzərə alınmaqla təkmilləşdirilərək Azərbaycan Respublikası Nazirlər Kabinetinə təqdim edilmişdir.

"Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanunundan və Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından irəli gələrək "Dövlət sosial xidmət müəssisələrinin dövlət monitorinqinin həyata keçirilməsi Qaydası"nın təsdiq edilməsi haqqında" və "Əhaliyə sosial xidmət göstərilməsi sahəsində fəaliyyəti həyata keçirən qeyri-hökumət və qeyri-kommersiya təşkilatlarının akkreditasiyası Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar layihələri hazırlanmışdır.

"Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun nəzdində Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslər üçün Sosial Adaptasiya Mərkəzinin yaradılması və istismarı ilə bağlı məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 oktyabr tarixli 434 nömrəli qərarının icrasının təmin edilməsi məqsədilə həmin müəssisənin Nizamnaməsinin layihəsi hazırlanmış, Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılmaqla AR ƏƏSMN-in qərarı ilə təsdiq edilmiş və. Müəssisənin fəaliyyətə başlaması üçün təşkilatı işlər görülmüşdür.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli 393 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"nın 5.3.3-cü, 5.3.5-ci və 5.3.9-cu yarımbəndlərinin icrası ilə bağlı müvafiq tədbirlər planı hazırlanmış və AR ƏƏSMN-in əmri təsdiq edilmişdir. Tədbirlər Planı çərçivəsində çətin həyat şəraitində olan xəstə və xəstələnmə riski olan uşaqların sosial xidmət müəssisələrinə yerləşdirilməsi, onlara ilkin tibbi yardımın, ixtisaslaşmış tibb mütəxəssisləri tərəfindən tibbi məsləhət yardımının təşkil edilməsi, ehtiyacı olan uşaqların müalicə-profilaktika müəssisələrinə yerləşdirilməsinin təmin edilməsi, uşaqların mütəmadi icbari dispanserizasiyadan keçirilməsi, sosial xidmət müəssisələrində sağlamlıq imkanları məhdud uşaqlara sosial xidmətlərin göstərilməsi, onların ilkin bilik və peşə bacarıqlarına yiyələnməsi, yaşından və sağlamlıq imkanlarından asılı olaraq fiziki tərbiyəsinin təşkili, sosial-psixoloji, sosial-pedaqoji, tibbi-sosial və sosial-hüquqi xidmətlərin göstərilməsi istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

AR ƏƏSMN ilə BMT-nin Uşaq Fondunun Azərbaycan Nümayəndəliyi arasında imzalanmış "Uşaq müdafiəsi və sosial müdafiə üzrə 2018-2019-cu illərə dair Dövrü Fəaliyyət Planı"na əsasən "İnteqrasiya edilmiş sosial xidmətlər modeli" pilot layihəsinin icrasına başlanılmışdır. Layihənin əsas məqsədi uşaqlara və ailələrə göstərilən sosial xidmətlərin keyfiyyətinin artırılması, sosial xidmətlərə əlçatanlığın təmin olunması və sosial xidmət sisteminin beynəlxalq norma və standartlara uyğun olaraq təkmilləşdirilməsidir.

"Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatının həyata keçirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" Tvinninq layihəsi çərçivəsində 2018-ci il 21 və 23 noyabr tarixlərində "Sosial xidmətin inkişafı: Fransa təcrübəsi" mövzusunda təlimlər təşkil edilmişdir. Təlimlərdə Nazirliyin aidiyyəti struktur bölmələrinin əməkdaşlarına Fransa Respublikasında mövcud olan sosial xidmət sistemi və müvafiq sahədə qanunvericilik, həmçinin, tənha ahıl və əlil vətəndaşlara göstərilən sosial xidmətlər, sosial müdafiəyə xüsusi ehtiyacı olan ahılların problemlərinin həlli istiqamətində digər qurumlarla əməkdaşlıq mexanizmi haqqında məlumat verilmiş, təcrübə mübadiləsi aparılmışdır.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu 31 may 2018-ci il tarixdə qəbul olunmuşdur. Bu Qanunla Azərbaycan Respublikasının qoşulduğu "Əlillərin hüquqları haqqında" Birləşmiş Millətlər Təşkilatının Konvensiyası ilə nəzərdə tutulmuş bütün hüquq və azadlıqların təmin olunması, o cümlədən bu sahədə dövlət siyasətinin əsas prinsiplərini, dövlət təminatlarını, əlilliyin qarşısının alınması, əlilliyi olan şəxslərin reabilitasiyası, məşğulluğu, əlil şəxslərin sosial təminatları və s. mühüm məsələlər əhatə edilir.

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının 2018-ci il 31 may tarixli 1153-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 213 nömrəli Fərmanının icrası ilə əlaqədar 20-dən çox normativ hüquqi aktın layihəsini hazırlanması istiqamətində işlər aparılır ki, bu layihələr əlillik sahəsində dominantlıq təşkil edən ənənəvi tibbi modeldən insan hüquqlarına əsaslanan sosial modelə keçid, milli qanunvericiliyin Azərbaycan Respublikasının qoşulduğu "Əlillərin hüquqları haqqında" Birləşmiş Millətlər Təşkilatının Konvensiyasına uyğunlaşdırılması ilə bağlıdır. . Aparılan islahat tədbirlərinin əsas hədəfi əlillik təyinatlarında ünvanlılığın və sosial ədalətin təmin edilməsi, xidmət keyfiyyətinin və vətəndaş məmnunluğunun yüksəldilməsidir.

AR ƏƏSMN-in ölkənin bütün bölgələri üzrə 15 bərpa-müalicə müəssisəsi, o cümlədən Respublika Protez-Ortopedik Bərpa Mərkəzi və Heydər Əliyev Fondu tərəfindən yaradılmış Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün reabilitasiya mərkəzi müvafiq şəxslərin istifadəsindədir. 2018-ci ildə Dövlət Tibbi Sosial Ekspertiza və

Reabilitasiya xidmətinin nəzdində fəaliyyət göstərən əlillərin bərpa mərkəzlərində və Protez Ortopedik Bərpa Mərkəzində 11 900 nəfər əlilliyi olan şəxs müalicə almışdır.

Protez-Ortopedik Bərpa Mərkəzi və onun struktur bölmələri tərəfindən əlilliyi olan şəxslərə 2018-ci ildə 1436 ədəd əlil arabası, 793 dəst eşitmə aparatı, 1680 ədəd aşağı və yuxarı ətraf, habelə süd vəzi protezi, 1725 ədəd yuxarı və aşağı ətraf ortezi, 15677 ədəd müxtəlif reabilitasiya vasitəsi, 295 ədəd bel və boyun nahiyəsi üçün korset, 2671 cüt protez ayaqqabı, 4298 cüt ortopedik ayaqqabı, 810 ədəd dördayaqlı dayaq vasitəsi verilmiş, 681 ədəd protez-ortopedik məmulat təmir olunmuşdur.

Bu təbəqədən olan insanlar həmçinin 2473 cüt qoltuqaltı və dirsəkaltı ağac, 2784 ədəd əsa və s. reabilitasiya vasitələri ilə təmin edilmişlər. Ümumilikdə, 2018-ci il ərzində Protez-Ortopedik Bərpa Mərkəzi və onun struktur bölmələri tərəfindən 1039 nəfəri Qarabağ müharibəsi əlili olmaqla, 9276 nəfərdən artıq əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq 35,3 min müxtəlif reabilitasiya vasitələri ilə təmin olunmuşlar. Mərkəzin Mürəkkəb protezləşdirmə stasionarlarında 636 nəfər stasionar müalicə almışdır.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı əlillik qazanmış şəxslərin yüksək texnologiyalı reabilitasiya vasitələri ilə təmin olunması məqsədilə Nazirliyin Protez-Ortopedik Bərpa Mərkəzində sex yaradılmışdır.

2018-ci ildə dövlət səhiyyə müəssisələri tərəfindən rəsmiləşdirilmiş göndərişlər əsasında 22787 nəfər ilkin əlilliyi olan şəxs və sağlamlıq imkanları məhdud uşaq hesab edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 18% azdır. Onlardan, 17595 nəfər ilkin əlilliyi olan şəxs hesab edilmişdir ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə 23% azdır.

I qrup ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 2311 nəfər, II qrup ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı 11603 nəfər, III qrup ilkin əlillik müəyyən olunmuş şəxslərin sayı isə 3681 nəfər olmuşdur ki, bu da keçən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq I qrup üzrə 34%, II qrup üzrə 28% və III qrup üzrə isə 14% azdır.

2018-ci ilin əlillik təyinatlarında şəffaflığın təmin edilməsi məqsədilə ciddi nəzarət tədbirləri görülmüş, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birgə iş nəticəsində 2018-ci ilin dördüncü rübündə birinci rüblə müqayisədə əlillik təyinatı 61 faiz, I qrup təyinatları isə 56 faiz azalmışdır.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaradılmış işçi qrupu tərəfindən aparılmış araşdırmalar nəticəsində əlillik təyinatında ünvanlılıq və sosial ədalətin təmini istiqamətində əhəmiyyətli nailiyyətlər əldə olunmuş, ləğv edilmiş əlillik təyinatlarından irəli gələn sosial müdafiə və təminat hüquqları üzrə illik 3 milyon manata yaxın büdcə vəsaitlərinə qənaət edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilən və dəstəklənən sosial siyasətə uyğun olaraq, əlilliyi olan şəxslərin sosial müdafiəsi, tibbi-sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası sahəsində ildən-ilə güclənən tədbirlərin bir istiqaməti də onların yaradıcılıq potensialının aşkara çıxarılaraq dəstəklənməsi və geniş miqyasda cəmiyyətə tanıdılmasıdır.

Bu sahədə növbəti bir addım kimi, BMT-nin 1992-ci ildə təsis etdiyi 3 dekabr "Beynəlxalq əlilliyi olan şəxslər günü" ilə əlaqədar AR ƏƏSMN-in təşkilatçılığı ilə Bakı şəhərində “İçərişəhər”də fiziki məhdudiyyətli şəxslərin X Ümumrespublika Yaradıcılıq Sərgi–Yarmarkası təşkil edilmiş, “Əlillik qüsur deyil” kitab-albomunun və əlilliyi olan şəxslərin əl işlərindən ibarət hazırlanmış hədiyyələrin təqdimatı keçirilmişdir. Kitab-albomda 60-a yaxın əlilliyi olan şəxs barədə məlumatlar və onların müxtəlif yaradıcılıq nümunələri təqdim olunur. İlk və yeganə inklüziv "ƏSA teatrı"nın əlilliyi olan aktyorlarının ifasında MorisMetterlinkin “Göy quş” tamaşa-premyerası tamaşaçılara təqdim edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanına uyğun olaraq, AR ƏƏSMN-in informasiya sistemləri əsasında Mərkəzləşdirilmiş elektron informasiya sistemi (MEİS) və fəaliyyət istiqamətləri üzrə əhaliyə göstərilən xidmətlərin vahid platforma üzərindən elektron formada təqdim edilməsi məqsədi ilə "e-sosial" internet portalı yaradılmışdır.

MEİS-in "Əmək müqaviləsi", "Ünvanlı yardım", "Əlillik", "Sığorta" və digər altsistemləri uğurla fəaliyyət göstərmiş, vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin artırılması məqsədilə davamlı tədbirlər görülmüşdür.

"Pensiya" altsistemində əmək pensiyaçılarına dair məlumatların inventarlaşdırılaraq toplanması işi sürətləndirilmiş, nəticədə yerli orqanlar üzrə ödənişlərin "Pensiya" altsistemi vasitəsilə aparılması təmin edilmişdir. Bu altsistem üzərindən əməliyyatların aparılması informasiya ehtiyatları ilə yoxlama imkanlarının artırılmasına, vəsaitlərin artıq ödənməsi hallarının qarşısının alınmasına şərait yaradır.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 21 dekabr 2018-ci il tarixli Fərmanına uyğun olaraq pensiyanın avtomatlaşdırılmış qaydada təyinatı ilə bağlı hazırlıq işləri həyata keçirilmişdir ki, ilk mərhələdə pensiya hüququ yaranacaq şəxslərin 70 faizinin (628 nəfərin) elektron qaydada avtomatlaşdırılmış pensiya təyinatı təmin ediləcəkdir.

"Sosial ödənişlər" altsistemi əhaliyə ödənilən müxtəlif təyinatlı təqaüd, kompensasiya və müavinətlər üzrə AR ƏƏSMN-in elektron müstəvidə, avtomatlaşdırılmış qaydada həyata keçirdiyi əməliyyatları əhatə edir. "Sosial ödənişlər" altsisteminə müavinət, təqaüd və kompensasiya alanlar barədə məlumatların inventarlaşdırılaraq toplanması şəxslərin hüquqlarının təmin olunmasının izlənilməsinə, dayandırma hallarının sistem tərəfindən müəyyən edilməsinə şərait yaradır. Hazırda altsistemə məlumatların toplanması işləri yerli orqanlar tərəfindən davam etdirilir.

Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 dekabr 2018-ci il tarixli Sərəncamına əsasən birdəfəlik yardımın ünvanlı dövlət sosial yardımı alan ailələrin hesablarına köçürülməsi, eləcə də "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş dəyişikliyə əsasən məcburi dövlət sosial sığorta haqlarının hesablanmasına və ödənilməsinə nəzarətin Azərbaycan Respublikasının Vergilər Nazirliyinə verilməsi üçün müvafiq işlər görülmüşdür.

20 noyabr 2018-ci il tarixindən etibarən "e-sosial" internet portalı hazırlanaraq əhalinin istifadəsinə verilmişdir. "e-sosial" portalının yaradılması vətəndaş məmnunluğunun, şəffaflığın artırılmasına, xidmətlərə sərf olunan vaxtın azaldılmasına, xidmətin keyfiyyətinin və dəqiqliyinin yüksəldilməsinə yönəlmişdir. Belə ki, vətəndaş "e-sosial" portalı vasitəsilə özü barədə məlumatları bir ünvanda görəcək və əlavə sənədlərin toplanması tədricən azalacaq. Tələb edilən sənədlər üzrə məlumatların informasiya sistemlərində toplanması vətəndaşların hüquqlarının tanınmasına imkan yaradacaq, vətəndaşlara xidmətlərin proaktiv formada göstərilməsi təmin ediləcək. Nəticədə vətəndaşların dövlət qurumuna müraciət etmə zərurəti olmayacaq. AR ƏƏSMN vətəndaşın yaranmış hüquqlarına uyğun olaraq, imtiyazların və ya ödənişlərin təyin edilməsi barədə vətəndaşı elektron formada məlumatlandıracaq. Rahat istifadənin təmin edilməsi üçün portal həm veb, həm mobil tətbiq formasında fəaliyyət göstərir. Portalın fəaliyyəti çərçivəsində Sosial Çağrı mərkəzi də fəaliyyət göstərəcək. Çağrı mərkəzi üzərindən interaktiv rejimdə xidmətin göstərilməsi üzrə mövcud olan təcrübə genişləndiriləcək və vətəndaşlar daha geniş xidmətlər ala biləcəklər. Hal-hazırda

vətəndaş 7×24 rejimində ÜDSY ilə bağlı müraciət və əlillik üçün göndəriş nəticələri barədə məlumatları interaktiv rejimdə ala bilir. Mobil tətbiqdən istifadənin genişləndirilməsi vətəndaşların daha təkmil formada məlumatlandırılmasına imkan yaradacaqdır. AR ƏƏSMN tərəfindən aparılan sosial ödənişlər, təyin edilmiş əlillik, pensiya kapitalı barədə və s. məlumatlar dərhal vətəndaşın telefonuna göndəriləcək və . vətəndaş bir çox əməliyyatları mobil tətbiq üzərindən həyata keçirəcəkdir.

2018-ci ilin noyabr ayından etibarən "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" Qanununa uyğun olaraq AR ƏƏSMN, İcbari Sığorta Bürosu və sığorta təşkilatları arasında memorandum imzalanmış, əmək müqaviləsi bildirişləri üzrə məlumatların İcbari sığorta bürosuna ötürülməsi təmin edilmişdir. Görülən bu işlər yeni yaradılan Dövlət Əməyin Mühafizəsi Fonduna vəsaitlərin toplanılmasına və istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortanın əhatə dairəsinin genişlənməsinə şərait yaradır.

Yeni formatda, müasir standartlara uyğun, əhalinin bütün kateqoriyalarının istifadə edə bilməsi üçün meyarların nəzərə alındığı AR ƏƏSMN-in yeni saytı 20 noyabr 2018-ci il tarixdə ictimaiyyətə təqdim edilmişdir. Nazirliyin saytının yeni domeninin (sosial.gov.az və social.gov.az) alınması və strukturuna daxil olan qurumlara məxsus domen adlarının ləğv edilməsi və əvəzinə Nazirliyin əsas domeninə bağlı olan altdomenlərin yaradılması təmin edilmişdir.

Ümumilikdə 2018-ci il ərzində nazirliyin e-xidmətlərindən 10 245 118 dəfə istifadə edilmişdir. AR ƏƏSMN tərəfindən əhaliyə göstərilən xidmətlərin digər mühüm istiqaməti Çağrı mərkəzi vasitəsilə əhaliyə göstərilən telefon məlumat xidmətidir. Çağrı mərkəzində 2018-ci il ərzində 160,3 min vətəndaş müraciəti cavablandırılmışdır. Görülən son tədbirlər nəticəsində Çağrı mərkəzi vasitəsilə vətəndaşlar əlillik müayinəsinin nəticəsi və sosial yardımın təyinatı üçün edilən müraciətə baxılmasının cari vəziyyəti barədə də məlumat əldə edə və yaşa görə əmək pensiyası hüququnu reallaşdıra bilirlər.

“Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 9 avqust tarixli 229 nömrəli Fərmanına əsasən əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və elektron xidmətlərə keçidin sürətləndirilməsi, habelə süründürməçilik hallarının qarşısının alınması və vətəndaş məmnunluğunun artırılması məqsədi ilə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin yaradılması üzrə işlər aparılmışdır. Bu işlərin davamı olaraq “Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 10 dekabr tarixli 387 nömrəli Fərmanı ilə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Nizamnaməsi, strukturu, “DOST” mərkəzlərində göstərilən xidmətlərin siyahısı və “DOST” mərkəzlərində xidmət göstərilməsi Qaydası” təsdiq edilmişdir.

2019-cu ilin əvvəlində ilk DOST mərkəzinin istifadəyə verilməsi, həmin ildə daha 3 mərkəzin açılması, ümumilikdə respublika üzrə 31 analoji mərkəzin yaradılması və bu mərkəzlərdə vətəndaşlara 124 növ xidmətin şəffaf şəkildə göstərilməsi planlaşdırılır.

İşsiz vətəndaşların məşğulluğunu təmin etmək məqsədilə onların ictimai işlərə cəlb edilməsinə dair yeni mexanizm hazırlanmış və bu məqsədlə 2018-ci ildə DOST Agentliyi tərəfindən “DOST İŞ MƏRKƏZİ” MMC təsis edilmişdir. Bu məqsədlər üçün dövlət büdcəsindən 80 mln. manat vəsait ayrılmışdır ki, 2019-cu ildə “DOST İŞ MƏRKƏZİ” MMC-nin fəaliyyəti nəticəsində 30 minədək işsiz vətəndaşın ödənişli ictimai işlərə cəlb edilməsi nəzərdə tutulur.




**Qeyd:** Vətəndaşlardan daxil olmuş müraciətlər (90 795 ədəd) cəmi müraciətlərin 79%-i təşkil etmişdir.

AR ƏƏSMN-in fəaliyyət sahələrində görülən işlərə və aparılan islahatlara dair 2018-ci il ərzində 870 press reliz hazırlanaraq yayımlanmışdır. Azərbaycan Respublikasının Xüsusi Dövlət Mühafizə Xidmətinin Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Agentliyinin Kompüter İnsidentlərinə Qarşı Mübarizə Mərkəzinin 2018-ci ilin yekunlarına əsasən açıqladığı məlumata əsasən, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəsmi internet saytı (www.sosial.gov.az) ötən il ən çox müraciət edilən rəsmi saytlar sırasında birinci olmuşdur. Cari ildə əmək, məşğulluq, sosial müdafiə sahələrində aktuallıq kəsb edən mövzularda təbliğat və maarifləndirmə məqsədilə sosial çarxların hazırlanmasına başlanılmış və 12 sosial çarx, 1 sənədli film hazırlanmış və TV-radio kanallarında, nazirliyin sosial şəbəkələrində yayımlanması təmin edilmişdir.

AR ƏƏSMN-in rəsmi facebook səhifəsini izləyənlərin sayı 4,7 min nəfər artaraq 47,7 minə, İnstagram səhifəsini izləyənlərin sayı 1,4 min nəfər artaraq 2,2 minə, youtube kanalını izləyənlərin sayı 1,1 min nəfər artaraq 1,5 min nəfərə çatmışdır. Rəsmi facebook səhifəsi vasitəsilə 2,5 minədək müraciətin cavablandırılması, Youtube kanalında AR ƏƏSMN-in tədbirləri ilə bağlı 2017-ci illə müqayisədə 4,2 dəfə çox olmaqla 300-dən çox videosüjetin yerləşdirilməsi təmin edilmişdir.

AR ƏƏSMN-in ictimai imicinin formalaşmasında mühüm rol oynayan brendinin təkmilləşdirilməsi, rebrendinq prosesi çərçivəsində yeni loqosunun (brendbook) hazırlanması təmin edilmiş və yeni loqosu istifadəyə verilmişdir. Paralel olaraq yeni yaradılan DOST Agentliyinin loqosunun (brendbook) hazırlanması işləri aparılmışdır.

AR ƏƏSMN-in yanında İctimai Şuranın aktiv fəaliyyəti təmin edilmiş, İctimai Şura ilə tam tərkibdə və onun işçi qrupları ilə 20-dən çox iclas və görüşlər keçirilmişdir.

AR ƏƏSMN-in 100 illik yubileyinə həsr olunmuş “Azərbaycanda sosial müdafiə sisteminin inkişafı: dünən, bu gün və sabah” mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

## Pensiya təminatı

2017-ci ilin 1 aprel tarixindən real rejimdə məcburi dövlət sosial sığorta haqları üzrə fərdi uçot əsaslı vahid rüblük hesabat alt sisteminin tətbiqinə başlanılmışdır.

Əhalinin sığorta-pensiya münasibətləri sahəsində xidmətlərdən elektron qaydada, rahat və şəffaf şəraitdə faydalanması, bu sahədə xidmətlərin onlayn rejimdə sadələşdirilməsi üçün ötən dövrdə aparılan mühüm işlər 2018-ci ildə də davam etdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" 2018-ci il 9 fevral tarixli Sərəncamına əsasən AR ƏƏSMN yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən 2017-ci il ölkə üzrə orta aylıq nominal əməkhaqqının 5,7 faiz illik artım tempinə (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına əsasən) uyğun olaraq, 2018-ci ilin 1 yanvar tarixinə əmək pensiyasının minimum məbləği, bütün növ əmək pensiyalarının sığorta hissəsi və fərdi uçot sistemində fərdi hesabların sığorta hissəsində qeydə alınmış pensiya kapitalı məbləğləri indeksləşdirilmişdir.

Əmək pensiyalarının indeksləşdirilərək artırılması 1 236 min nəfər pensiyaçıya və ya onların 94 faizinə şamil olunmuş, 2018-ci ilin fevral ayının pensiyalarının ödənişi yanvar və fevral aylarındakı artımlar ilə birlikdə həyata keçirilmişdir.

Əmək pensiyalarının orta aylıq məbləği 2018-ci ilin 1 yanvar tarixinə olan 208,36 manatdan 2019-cu ilin 1 yanvar tarixinə 222,57 manata, o cümlədən müvafiq olaraq həmin tarixə yaşa görə əmək pensiyasının orta aylıq məbləği 233,68 manatdan 250,80 manata, əlilliyə görə əmək pensiyasının orta aylıq məbləği 175,01 manatdan 185,90 manata və ailə başçısını itirməyə görə əmək pensiyasının orta aylıq məbləği isə 164,07 manatdan 175,90 manata yüksəlmişdir. Pensiyanın orta aylıq məbləği ötən illə müqayisədə 6,8 %, yaşa görə pensiyanın orta aylıq məbləği isə 7,3 % artmışdır. .

01.01.2019-cu il tarixə ölkədə 1 milyon 299 min nəfər və ya ölkə əhalisinin 13 faizi əmək pensiyası alanlardır. Ölkə üzrə əmək pensiyaçılarının 757397 nəfəri və ya 58,3 faizi yaşa görə, 391426 nəfəri və ya 30,1 faizi əliliyə görə, 150638 nəfəri və ya 11,6 faizi isə ailə başçısını itirməyə görə pensiya alanlardır. Pensiyaçıların sayı 2018-ci ilin müvafiq dövrünə nisbətən 18,9 min nəfər və ya 1,4 % azalmışdır.

**Əmək pensiyaçılarının sayı və pensiyanın orta aylıq məbləği barədə məlumat**

| | Yaşa görə | Orta aylıq | Əlilliyə görə | Orta aylıq | ABİ | Orta aylıq | Ümumi | Orta aylıq |
|---|---|---|---|---|---|---|---|---|
| **31.12.2005** | 779472 | 29,49 | 266888 | 32,25 | 135315 | 26,51 | 1181675 | 29,78 |
| **31.12.2006** | 783371 | 40,98 | 275925 | 45,35 | 128730 | 32,56 | 1188026 | 41,09 |
| **31.12.2007** | 798052 | 60,11 | 285629 | 62,73 | 126430 | 43,48 | 1210111 | 58,99 |
| **31.12.2008** | 835844 | 99,39 | 301661 | 94,80 | 137633 | 76,37 | 1275138 | 95,82 |
| **31.12.2009** | 858659 | 104,36 | 311849 | 98,53 | 137924 | 80,11 | 1308432 | 100,41 |
| **31.12.2010** | 831122 | 117,58 | 324745 | 110,74 | 136288 | 89,20 | 1292155 | 112,86 |
| **31.12.2011** | 812771 | 160,10 | 331586 | 126,10 | 133239 | 101,00 | 1277596 | 145,11 |
| **31.12.2012** | 800547 | 168,54 | 338213 | 129,84 | 133376 | 109,15 | 1272136 | 152,03 |
| **31.12.2013** | 791263 | 187,82 | 349095 | 148,40 | 136695 | 126,16 | 1277053 | 170,45 |
| **31.12.2014** | 785068 | 192,38 | 365750 | 149,43 | 140064 | 130,00 | 1290882 | 173,44 |
| **31.12.2015** | 781238 | 197,62 | 374466 | 150,30 | 144242 | 140,4 | 1299946 | 177,64 |
| **31.12.2016** | 781957 | 213,81 | 383590 | 163,23 | 149682 | 153,43 | 1315229 | 192,19 |
| **31.12.2017** | 780756 | 230,70 | 390851 | 171,40 | 151272 | 163,10 | 1322879 | 205,50 |
| **31.12.2018** | 757397 | 250,80 | 391426 | 185,90 | 150638 | 175,90 | 1299461 | 222,57 |

**Qeyd:** Əmək pensiyaçılarının sayı nəfərlə, pensiyanın orta aylıq məbləği manatla verilmişdir.

2017-ci il 1 iyul tarixdən "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun 37.3.1-ci maddəsində edilmiş dəyişikliyə əsasən yaşa görə pensiya təyin edildikdən sonra azı 6 il işləmiş və hal-hazırda da işləməkdə davam edən, əmək pensiyaçısı kimi əmək pensiyasının sığorta hissəsinin yenidən hesablanması üçün müraciət edən şəxslərin əmək pensiyalarının məbləği artırılmışdır.

Məcburi dövlət sosial sığorta haqqı normativinin strukturunun təkmilləşdirilməsi məqsədilə "Sığortaedənlər tərəfindən məcburi dövlət sosial sığorta haqqının ödənilməsinin və məcburi dövlət sosial sığorta sahəsində mövcud olan borcların tənzimlənməsi haqqında" Azərbaycan Respublikasının Qanunu layihəsi hazırlanmış və 2018-ci ilin 7 mart tarixində Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmişdir. Qanunun tətbiqi sahibkarlıq fəaliyyətinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmiş, xeyli sayda sığortaedənlərin maliyyə durumunu yaxşılaşdırmışdır.

Növbəti ildən məcburi dövlət sosial sığorta və işsizlikdən sığorta haqlarının hesablanması və ödənilməsinə nəzarət üzrə fəaliyyətin Azərbaycan Respublikasının Vergilər Nazirliyinə verilməsi nəzərə alınmaqla məcburi dövlət sosial sığorta haqları üzrə sığortaedənlərə və sığortaolunanlara düşən yükün və fiziki şəxslərin gəlir vergisinin tənzimlənməsini əks etdirən "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu layihəsi hazırlanaraq hökumətə təqdim olunmuş və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 30 noyabr 2018-ci il tarixdə qəbul edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 1 may tarixli 1352 nömrəli Fərmanının 1.2-ci bəndinin icrası olaraq "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"nın layihəsi hazırlanmış və Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun tarixli 142 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

"Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 5 sentyabr tarixli 258 nömrəli Fərmanın 2.4.3-cü bəndinin icrası olaraq hazırlanmış "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanunu layihəsi hökumətə təqdim olunmuş və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən 30 noyabr 2018-ci il tarixdə qəbul edilmişdir.

Qeyri-dövlət pensiya fondlarının yaradılmasını və fəaliyyətini tənzimləyən normativ hüquqi bazanın müəyyənləşdirilməsi məqsədilə AR ƏƏSMN-də "Fərdi hesabın yığım hissəsi haqqında" və "Qeyri-dövlət pensiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu layihələri hazırlanmışdır ki, hazırda layihənin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan Respublikasında pensiya təminatı sisteminin islahatının həyata keçirilməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə dəstək" tvinninq layihəsinin mütəxəssislərinin iştirakı ilə alternativ layihələr üzərində iş aparılaraq "Fərdi hesabin yiğim hissəsi haqqinda" və "Qeyri-dövlət pensiya fondları haqqında" Azərbaycan Respublikasının Qanunu layihələri hazırlanmış və layihəyə rəy və təklifləri təqdim olunmuşdur. Asiya İnkişaf Bankının Bakı ofisinin maliyyə dəstəyi ilə beynəlxalq və yerli ekspert tərəfindən layihələrə rəy və təkliflərin verilməsinə cəlb olunmuşlar. Layihələrin təkmilləşdirilməsi üzrə işlər davam etdirilir.

---